**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2020-ci ilin birinci yarısı üçün elan etdiyi müsabiqə çərçivəsində qəzetlərə maliyyə yardımının göstərilməsi ilə bağlı qərar qəbul edib. Maliyyə yardımı ayrılan qəzetlər arasında Azərbaycan və rus dillərində çıxan "Kaspi" və "Kaspiy" qəzetlərinin adı yoxdur. Hər iki qəzetin kollektivi bununla əlaqədar Prezident İlham Əliyevə müraciət ünvanlayıb.**

Müraciətdə qeyd olunur ki, qəzetə ayrılan maliyyə yardımının hansı səbəbdən dayandırılması ilə bağlı onlara heç bir məlumat verilmir.

**"Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva** Azərbaycan Respublikasının Prezidenti yanında KİV DF-nin "Kaspi" nin rəhbərliyi bu tarixi nailiyyətləri nəzərə almalı və "Kaspi"ni bu siyahıdan kənarda qoymamalı idi. Ümid edirəm ki, bizə maliyyə yardımı ayrılacaq. Çünki "Kaspi" qəzeti bir çox qəzetlərdən fərqli olaraq Ulu öndərimizin, dövlət başçımızın, Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın siyasətini daim dəstəkləyir və onların həyata keçirilməsində var qüvvəsi ilə kollektivin hər bir üzvü çalışırlar".

**"Kaspi"nin əməkdaşı, Əməkdar jurnalist Təranə Məhərrəmova** qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) qəzetlərə maliyyə yardımının göstərilməsi ilə bağlı qəbul etdiyi qərarın "Kaspi" qəzetinə şamil edilməməsi böyük təəssüf doğurur: "Bu qərar faktiki qəzetin nəşrinin dayanması deməkdir. Nəzərə alsaq ki, "Kaspi" qəzeti fəaliyyət göstərdiyi müddətdə özü də keyfiyyətli formada ərsəyə gətirəsən. Biz təkcə ölkə daxilində deyil, ölkəmizin hüdudlarından kənarda fəaliyyət göstərən gənclərimizin fəaliyyətini daim izləyir, onlardan materiallar hazırlayırıq. "Görünən dağa bələdçi lazım deyil" deyirlər. Mətbuat işi də elədir ki, materiallarımızın keyfiyyəti, cəmiyyət üçün nə dərəcədə faydalı olması artıq göz önündədir".

**"Kaspi"nin digər müxbiri Aygün Əziz** də bu mətbu orqanı özü üçün jurnalistika məktəbi hesab edir: "Karyerama başladığım, öyrəndiyim, öyrənməkdən zövq aldığım məkan... Bu gün də yazılarımı oxuyanda həyəcanla redaktorlarımın nə deyəcəklərini gözlədiyim doğma bir yuvadır. 8 ildir ki, hər gün yazdığım, çalışdığım, vuruşduğum, özümü hər zaman sübut etməyə çalışdığım MƏKTƏB... Mən bu məktəbdə həmkar olmağı, ədaləti, haqqı, dürüstlüyü, obyektivliyi öyrəndim. Bu illərdə fasiləsiz müsahibələr aldım, reportajlar, məqalələr yazdım. Jurnalistika fəaliyyətimdə tanış olduğum insanların əksəriyyəti sosial şəbəkələrdə dostluğumdadır. Bizi aylıq qazancımız, gəlirimiz yox, ortaya qoyacağımız keyfiyyətli iş maraqlandırıb. Amma bu işin burda və indi, həm də əsası olmadan bitməsi bizim əllərimizi soyudur, inamımızı, güvənimizi sarsıdır. "Kaspi"nin bu gün ortaya qoyduğu müsahibələrə, materiallara, reportajlara, məqalələrə baxın, nə az, nə çox demirəm, heç olmasa, bu əməyin 50 faizi sizdə varmı?"

# "Kaspi" kollektivindən KİV DF-nin qərarına etiraz

## Bu tarixi nailiyyətlər nəzərə alınmalı idi



qəzetini maliyyələşən qəzetlərin siyahısından çıxarmasını bütövlükdə öz kollektivlərinə qarşı ədalətsiz qərar adlandırıb: "Dövlət vəsaiti ilə maliyyələşən 25 qəzet siyahısından yalnız rus və Azərbaycan dillərində çıxan "Kaspi" qəzetləri ixtisar olunub. Bu gün "Kaspi" qəzeti öz nüfuzu ilə seçilən qəzetlərdən biridir. Rus və Azərbaycan dillərində gündəlik çıxan "Kaspi" qəzetinin 50 nəfər rəsmi, 50 nəfərdən yuxarı isə qonorarla çalışan jurnalist kollektivinin işsiz qalması yolverilməzdir. Hər iki qəzetin çoxsaylı kollektivi dünən ölkə rəhbəri cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ünvanladı. Cənab İlham Əliyevin hər zaman Azərbaycan mətbuat işçilərinə qarşı yüksək qayğı və diqqət göstərdiyi hamımıza məlumdur. Jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması üçün mənzillərin tikilməsi, medianın inkişafı üçün yüksək məbləğdə vəsaitin ayrılması buna sübutdur. Geniş islahatların başlandığı, dövlətin inkişafının mediada geniş təbliğ olunduğu zamanda jurnalistlərin dostu olan cənab Prezident İlham Əliyevin, eləcə də Birinci Vitse-prezident Mehriban Əliyevanın bizim bu müraciətə müsbət cavab verəcəyinə inanırıq".

Bəs "Üç əsrin qəzeti" adlanan "Kaspi"də bu qərar necə qarşılanır? Qəzetin əməkdaşları təəssüf doğuran məlum məsələni necə şərh edirlər? Məsələ ilə bağlı "Kaspi" qəzetində olduq və kollektivin fikirlərini aldıq.

**"Kaspiy" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İlqar Hüseynov** vurğulayıb ki, KİV DF-nin bu təşəbbüsü redaksiyada çox neqativ qarşılanıb: "Çünki digər mətbu orqanlardan fərqli olaraq "Kaspi" qəzeti bütün postsovet məkanında ən qədim və böyük tarixi olan bir qəzetdir. Bu qəzetin yaranmasında görkəmli şəxsiyyətlər iştirak edib. Hacı Zeynalabdin Tağıyev bu qəzeti alıb, sonradan Əlimərdan bəy Topçubaşovu qəzetə baş redaktor təyin edib. Müəyyən səbəblərə görə qəzet bağlandı və 80 il keçdikdən sonra - 1999-cu ildə yenidən işıq üzü gördü. 2012-ci ilin sentyabrından etibarən isə "Kaspi"nin rus versiyası bərpa oldu. Bugünkü günə qədər də çap olunur. Hesab edirəm ki, maliyyə yardımı ayrılan zaman KİV DF-nin dövlət maraqlarına xidmət edib, dövlətimizin siyasi kursunu dəstəkləyib, inkişafa güzgü tutub, digər tərəfdən ölkədəki problemlərin həlli istiqamətində ictimai nəzarət funksiyasını yerinə yetirib - onda bu qəzetin fəaliyyətinə qarşı çox ədalətsiz qərardır. "Kaspi"nin "Gənclik", "Ədəbiyyat" və "Teatr " əlavələrinin fəaliyyətini də əlavə etsək, qəzetin gəncliyə, mədəniyyət və incəsənətə dəstək, həmçinin maarifçilik ənənələrini yaşadan, milli mənəvi-dəyərlərin qorunması istiqamətində fəaliyyət göstərən mətbu orqan olduğunu təsdiq etməyə ehtiyac qalmır".

T.Məhərrəmova əlavə edib ki, "Kaspi"də ümumilikdə 50 nəfərə yaxın jurnalist və texniki heyət çalışır: "Qəzet qonorar əsasında tanınmış imza sahibləri ilə əməkdaşlıq edir. Qəzetin kollektivi KİVDF-nin qərarına etiraz edir. Bu, qəzetdə çalışan işçilərin əmək hüquqlarının pozulması deməkdir. Təbii ki, biz problemin həlli üçün ölkə başçısı İlham Əliyevə müraciət ünvanladıq. Ümidvarıq ki, "Jurnalistlərin dostu" kimi həmişə öyündüyümüz Prezident yenə də bizim yanımızda olacaq. Səbəbi izah olunmadan maliyyə yardımı dayandırılan qəzetin adının yenidən siyahıya salınmasına yardımçı olacaq. Bir halda ki, dövlət başçısı "Ölkədə bircə nəfər də işsiz adam qalmamalıdır" deyirsə, onda biz ədalətin bərpasına ümid edirik!"

**"Kaspi"nin "Gənclik" əlavəsinin redaktoru Aygün Asimqızı** əlavənin 6 illik fəaliyyətindən bəhs edib: "6 ildir bu əlavə ölkə gəncliyinin fəaliyyətini işıqlandırır. Bəlkə də, sözlə ifadədə bu, kiməsə asan gələ bilər, amma ümumilikdə, 30-a yaxın rubrikamız var. Hər həftə 10 rubrika üçün material hazırlayırıq. Mətbuatda çalışanlar bilirlər ki, həftədə bir rubrika hazırlamaq belə,çox çətindir, qaldı ki, 10 rubrikanı qısa müddətdə,

**Qəzetin müxbiri Şəbnəm Mehdizadə** də hesab edir ki, "Kaspi" Azərbaycan mətbuat tarixində öz nüfuzuna, peşəkarlıq səviyyəsinə görə hər zaman seçilib: "Onu "Üç əsrin qəzeti" adlandırmağımız təsadüfi deyil. 1881-ci ildən bəri çap olunan bu qəzetdə onlarla ziyalının adını çəkmək olar ki, burada həmin şəxslərin imzası ilə materiallar yayımlanıb. Hazırda da Azərbaycan mətbuatında yazılarının peşəkarlığına görə seçilən tək-tük mətbuat orqanlarından biridir. Düşünürəm ki, qəzetin fəaliyyətini dayandırmas işçilərin işsiz qalması demək deyil, həm də Azərbaycanın media camiəsində böyük bir boşluğun yaranması deməkdir".

**"Kaspi"nin əməkdaşı Günel Azadə** qəzetin maliyyə yardımından kənarda qalmasına kollektivin həqiqətən də üzüldüyünü qeyd etdi: "Bura mənim üçün jurnalistika məktəbidir. Müxbir kimi fəaliyyətə bu qəzetdən başlamışam. Reportaj yazmağı, müsahibəyə hazırlaşmağı bu kollektivdən öyrənmişəm. Bu qəzet mənə həyatım boyu unudulmayacaq təcrübə qazandırıb. Amma bu günlərdə verilən qərar bizi çətin duruma saldı. Prezident İlham Əliyev həmişə çıxışlarında gənclərə dəstək olmağı, onların iş probleminin həlli istiqamətində ciddi addımların atılmasının gərəkliyini bildirir. Amma verilən bu qərarla nə qədər gənc jurnalist işsiz qalır. Ümumiyyətlə, zəngin bir tarixi olan qəzetə belə münasibətin olması çox təəssüfləndiricidir. Biz problemin həlli, burada çalışan 50-dən artıq jurnalistin və texniki işçinin işsiz qalmamas üçün ölkə başçısının ədalətli qərar verəcəyinə inanırıq".

**Ləman Hüseynzadə,**
*aznews.az*